# Zaqatalada beynəlxalq fındıq, qoz, şabalıd festivalı

Zaqatala şəhərindəki Dədə Qorqud meydanının gözəlliyi də, çal-çağırlı, səs-küylü, şən əhval-ruhiyyəli təntənəsi də həmişəkindən daha fərqli idi. Çünki həmin gün - sentyabrın 29-da bu meydan rayonda ikinci dəfə keçirilən fındıq, qoz, şabalıd festivalı iştirakçılarının ixtiyarına verilmişdi. Qonşu rayonlardan, həmçinin xarici dövlətlərin ölkəmizdəki səfirliklərinin, respublikanın nazirlik, komitə və müvafiq idarələrinin iştirakı ilə keçirilən, əvvəlki ildəkindən fərqli beynəlxalq status səviyyəsində təşkil olunan festival əsas ona görə xüsusi önəm daşıyırdı ki, zaqatalalılar ölkə Prezidenti İlham Əliyevin respublikada qeyri-neft sektorunun, o cümlədən aqrar sahənin inkişafı ilə əlaqədar qarşıya qoyduğu vəzifələri uğurla icra etdiklərini, rayonda fındıq-



çılığın inkişafı, qoz, şabalıd istehsalının daha da artırılmasında əldə etdikləri nailiyyətləri burada əyani şəkildə nümayiş etdirirdilər.

Fındıqçılıq Zaqatalanın hələ XIX əsrin ortalarında iqtisadiyyatında mühüm yer tutmağa başlamış və əsas sahələrdən birinə çevrilmişdir. 1932-ci ildə Zaqatalada ilk dəfə olaraq fındıqçılıq sovxozu yaradılmışdır. Keçmiş SSRİ məkanında ilk fındıq emalı zavodu 1929-cu ildə bu rayonda fəaliyyətə başlamışdır. Elə o vaxtlarda yaradılan möhkəm baza, əhalinin bu sahəyə getdikcə artmağa başlayan böyük marağı Zaqatalada kənd təsərrüfatının digər sahələri ilə yanaşı, fındıqçılığın daha da inkişafında mühüm rol oynamışdır. Ulu öndər Heydər Əliyevin aqrar sahədə həyata keçirdiyi islahatlar bu sahənin inkişafına daha sanballı təkan vermişdir.



Bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu strategiyanı uğurla davam etdirir, qeyri-neft sektorunun iqtisadiyyatın ən önəmli sahəsinə çevrilməsi sosial-iqtisadi proqramın ana xəttinə çevrilmişdir. Festival başlanmazdan öncə rayon icra hakimiyyətinin rəhbərləri, tədbirə dəvət olunan çoxlu sayda yerli və xarici qonaqlar ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etdilər, ora tər çiçəklər qoydular, xatirəsini böyük ehtiramla yad etdilər. Heydər Əliyev Mərkəzi ilə tanışlıq da qonaqlarda zəngin təəssürat yaratdı. Səhər saatlarından şəhərin Dədə Qorqud meydanından hər yana yayılan çal-çağır sədalarının da ayrı ləzzəti vardı. Zaqatalalılar, qonşu rayonlardan bu sorağa gələnlər dəstə-dəstə bu meydana axışırdılar. Zaqatalanın qəsəbə və kəndlərinin, ayrı-ayrı müəssisələrinin, məktəb və bağçalarının kollektivlərinin, bir sıra fermer və iş adamlarının təşkil etdikləri guşələr, orada fındıqdan hazırlanan məhsullar, müxtəlif məişət əşyaları və geyimlər, bütün nemətlər bayram iştirakçılarına xüsusi ləzzət verirdi.

Festivalın qonaqlarını fındıqdan hazırlanan paltar geyinmiş qız fındıq səbəti ilə qarşılayır, onlara bal şərbəti verilir, hamı fındıqlı çörəkdən kəsib yeyir. Yanımızda dayanan bir el ağsaqqalı bu mənzərədən yaranan sevinc və məhəbbətini - bəli, Zaqatalamız bal kimi şipşirin, fındıqlı çörək kimi bərəkətlidir - sözlərini ifadə edir, bu təntənəni düzüb qoşub ərsəyə gətirənlərə əhsən deyir. Festivalın təntənəli açılışı öncəsi qara zurnanın ətrafı bürüyən heyranedici sədaları, al-əlvan geyimli qız və oğlanların ifa etdikləri rəqslər könülləri oxşuyur, ürəklərə həzinlik gətirir. **Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə** giriş sözü ilə festivalın açılışını edir: O, çıxışında rayonda fındıqçılığın inkişafının qısa xronikasını verərək deyir. Bütün sahələrdə olduğu kimi, fındıqçılığın da ən uğurlu və sürətli inkişaf dövrü ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. 1929-cu ildən rayonda keçmiş SSRİ məkanında yeganə olan fındıq emalı zavodu fəaliyyət göstərirdi. Zavodda istehsal edilmiş fındıq, eləcə də konserv məhsulları keçmiş SSRİ-nin bütün respublikaları ilə yanaşı, bir sıra Avropa ölkələrinə də ixrac edilirdi.

Bu sahə üzrə Zaqatalada son illər çox işlər görülüb və həyata keçirilən irimiqyaslı layihələr, dövlət proqramları fındıqçılığın inkişafında əhəmiyyətli rol oynayır. Nəticədə xarici bazarlarda fındığa olan tələbat və onun dəyərli olması, həmçinin nəqliyyata və uzun müddət saxlanılmağa davamlılığı rayonumuzda əhali tərəfindən yeni fındıq bağlarının əkilməsinə və kifayət qədər fındıq emalı ilə məşğul olan müasir müəssisələrin yaranmasına səbəb olub. Ölkə üzrə mövcud olan fındıq bağlarının 25 faizi Zaqatalanın payına düşür. Rayonda son 3 ildə fındıq bağlarının sahəsi 9575 hektardan 18 min 575 hektara çatdırılmışdır. Bu ilin payız mövsümündə isə bağların ümumi sahəsi 20 min hektar olacaqdır.

İcra başçısı çıxışında daha sonra bildirdi ki, təkcə 2016-cı ildə Zaqatala rayonunda fındıq ləpəsinin xarici ölkələrə idxalından respublikamıza 74 milyon, 2017-ci ildə isə 124 milyon manat vəsait daxil olmuşdur. 2018-ci ildə bu göstəricinin xeyli artacağına real imkanlar var. Ötən il ixrac olunan fındıq ləpəsi Avropanın 25 ölkəsinə göndərilmişdir.

Bəli, həmin gün hər bir Zaqatala sahibkarından sadə əmək adamınadək, ağsaqqal və ağbirçəyindən gəncinədək hamı sevinirdi ki, rayonda birinci beynəlxalq fındıq, qoz, şabalıd festivalı keçirilir. Rəsmi açılışdan sonra oğlan və qız-




lar milli rəqs ifa edir, böyük təntənə ilə fındıqla bəzədilən tort kəsilir. Dədə Qorqud meydanı sanki ağacları olmasa da başdan-başa fındığa bələnmişdi. Fındıqdan hazırlanan müxtəlif formalı tortlar, bir-birindən dadlı, ləzzətli şirniyyatlar, əl işləri, rəsm əsərləri, ən zəngin fındıqla bağlı məlumat lövhələri, ən gözəl fındıq geyimi, ən gözəl fındıq xonçası ürəkləri oxşayırdı. Festivalda diqqətçəkən çox mənzərələr vardı. Elə bir stol, guşə yox idi ki, qarşısında ən azı yarımca saat ayaq saxlayıb heyranlığını, sonsuz marağını bildirməyəsən, oradakı adamla həmsöhbət olmayasan. "Kənd evi" adlı ünvan da maraqlı və heyranedici idi. Burada fındıq qabığı ilə peçin yandırılmasını, fındıq və şabalıdın qovrulmasını, şabalıdın saxlanma qaydasını görəndə sacda bişirilən maxaradan yeyəndə fındıqlı, qozlu aşın ləzzətini biləndə istər-istəməz bir anlığa özünü kənd həyatına kökləyir, xəyallarını unudulmaz illərə bağlayırdım.

Əliabad qəsəbəsinin icra nümayəndəsi Həsən Həsənov söhbət əsnasında dedi ki, bugünkü festivala yaxşı hədiyyələrlə gəliblər. Bu bayram şənliyi əliabadlıların da fındıqçılığa olan maraqlarını, istəklərini birə-on qat artırıb. Festival iştirakçılarından fındıq istehsalçıları və ixracatçıları assosiasiyasının sədri İsmayıl Orucov, "Aqrovest" MMC-nin sədri Maarif Aslanov da söhbətlərində fındığın böyük əhəmiyyətlərindən danışdılar. Şəhərdəki uşaq bağçalarının, məktəblərin kollektivləri də festivala əliboş gəlməmişdilər. Qonşu rayonların festivalda nümayiş etdirdikləri nümunələr ürəkaçan idi. Şəki, Oğuz, Balakən, Qax, Qəbələ rayonlarının təmsil etdirdikləri guşələrdə də festivalın təntənəsi hökm sürürdü.

Festival bir neçə saat davam etdi. Təşkil olunan sərgilərə böyük həvəslə baxan, sevincini, şadlığını, zurnaçılar dəstəsinin ifa etdikləri oyun havaları ilə oynayıb nümayiş etdirən zaqatalalı idmançı uşaqların nümayiş etdirdikləri bir-birindən maraqlı nömrələrə də diqqətlə tamaşa etdilər. Müəyyən olunan vaxtda qonaqların Zaqatala Bölgə Təcrübə Stansiyasının Pərzivan ərazisindəki fındıq bağına, "Azərsun" MMC-nin Zaqatala Fındıq Emalı Zavoduna ekskursiyaları da yaddaqalan oldu. Beynəlxalq fındıq, qoz, şabalıd festivalı sonda böyük bayram konserti ilə başa çatdı.

**Rasim AMANOV,**
**"Respublika".**

Respublika.- 2018.- 2 oktyabr.- S.5.